# Sosial şəbəkələrdə davranış qaydaları

Biz, Carlsberg Pivəbişirmə A/S olaraq, bu səhifəni sosial şəbəkədə yaratdıq ki, siz Carlsberg dünyasında baş verənlərdən xəbərdar ola, suallar və təkliflər verə, şəkillər dərc edə və Carlsberg ilə bağlı mövzularda öz fikirlərinizi bildirə biləsiniz. Biz müştərilər və digər sosial şəbəkə istifadəçilərindən rəyləri və şərhləri salamlayırıq, dərc edilməzdən əvvəl səhifədə müştərilər və sosial şəbəkə istifadəçiləri tərəfindən yerləşdirilən şərhlər, mesajlar və ya yükləmələri moderasiyadan keçirmirik. Hər hansı bir təhqiredici, alçaldıcı və ya qeyri-qanuni məzmun barədə bizə info@carlsberg.com ünvanına yazmaqla bildirin.

Biz zəmanət veririk ki, bütün marketinq kommunikasiyalarımız sosial məsuliyyətlidir və sənaye normalarına və qaydalarına uyğundur. Sosial şəbəkələrdəki səhifələrimizdəki bütün materiallar, o cümlədən səhifə istifadəçiləri tərəfindən yerləşdirilən materiallar da bu tələblərə uyğun olmalıdır. Biz bu tələbləri poza biləcək məzmunu, o cümlədən, lakin bununla məhdudlaşmayaraq, yaşı 25-dən az olan şəxsləri təsvir edən istənilən şəkilləri, təmkinsiz və ya məsuliyyətsiz istehlakı və ya hər hansı üçüncü tərəf brendinqini silmək hüququnu özümüzdə saxlayırıq.

Bu səhifədə pərəstişkarlar tərəfindən yerləşdirilən dərclər, şərhlər, reklam çarxları, videolar və digər materiallar mütləq markamızın fikirlərini və dəyərlərini əks etdirmir.

Biz bu sosial şəbəkə səhifəsini bütün pərəstişkarlar üçün xoş bir sayt şəklində saxlamağa çalışırıq, buna görə də biz sizdən - istifadəçilərdən - aşağıdakı qaydalara və kateqoriyalara riayət etməyi və bu kateqoriyalara uyğun gəlməyən məzmunun redaktorumuz tərəfindən silinəcəyini (və ya silindiyini) nəzərə almağınızı xahiş edirik:

### Dil

Xahiş edirik başqalarına hörmət göstərin və anormal leksikadan, açıq seksual istinadlardan və ümumiyyətlə yersiz terminologiyadan istifadə etməkdən çəkinin.

### Hörmət

Hörmət vacibdir və biz hər hansı bir şəkildə başqalarını təhqir, təhdid edən və ya ləkələyən şərhlər və ya dərclər qəbul etmirik.

### Şəkillər/videolar

Biz ədəbsiz, nalayiq, qanunları pozan və ya gözdən salan materialları qəbul etmirik. Bura 25 yaşdan aşağı insanların təsvir olunduğu foto və ya video

materiallar da daxildir. Biz, həmçinin, məsuliyyətsiz içki qəbulu və ya sərxoşluq nümayiş etdirən materialları da qəbul etmirik.

### Spam

Zəhmət olmazsa, yalnız Carlsberg ilə bağlı mövzular. Biz digər markalar və hadisələri təşviq edən dərclər və materiallarla maraqlanmırıq.

### Üçüncü tərəf reklamları

Bu platforma, Carlsberg sosial şəbəkə səhifəsi ilə yanaşı, reklam və sensasiyalı materiallar nümayiş etdirə bilər. Biz onlarda olan məzmun və ya şəkillərə nəzarət etmirik və biz onlarla həmrəy deyilik və onlara qoşulmuruq.

### Üçüncü tərəf saytlarına linklər

Sosial şəbəkədəki pərəstişkar səhifəmizdə üçüncü tərəflərin təqdim etdikləri digər saytlara və resurslara linklər olduqda, bu linklər yalnız sizin məlumatınız üçün verilir. Biz bu saytların və ya resursların məzmununa nəzarət etmirik və biz onlara görə və ya onların istifadəsi nəticəsində yarana biləcək hər hansı bir itki və ya ziyana görə heç bir məsuliyyəti qəbul etmirik.

Yuxarıda göstərilənlərə əlavə olaraq, sizi sosial şəbəkə səhifəsinin aşağıdakı linkdən tanış ola biləcəyiniz öz qaydalarına yönləndiririk:

- Facebook-un Hüquq və Vəzifələr haqqında bəyanatı: https://www.facebook.com/terms.php
- YouTube-un Qaydaları və Şərtləri: https://www.youtube.com/static?template=terms
- İnstagram-ın İstifadə şərtləri: https://help.instagram.com/478745558852511
- Twitter-in Xidmət Şərtləri: https://twitter.com/en/tos#intlTerms

Biz məlumatların məxfiliyinə hörmət edirik: bizim Məxfilik Bildirişimiz platformanın öz gizlilik qaydalarına əlavə olaraq, bu səhifə vasitəsilə bizimlə paylaşdığınız şəxsi məlumatlara şamil edilir.

Nəhayət, səhifədə olan bütün kontent yalnız yaşadığınız ölkədə qanunla alkoqol qəbulunun icazə verildiyi yaşa çatmış şəxslər üçün nəzərdə tutulmuşdur və biz onu qanunla alkoqol qəbulunun icazə verildiyi yaşa çatmamış şəxslərlə paylaşmamağı məsləhət görürük.

Carlsberg Pivəbişirmə A/S alkoqol ilə keçirilən istənilən vaxtı sosial məsuliyyətli təcrübəyə çevirmək niyyətindədir, buna görə də, sizdən məsuliyyətlə içməyi xahiş edirik. Ətraflı oxuyun: http://www.responsibledrinking.org

**Bizimlə əlaqə saxlayın: info@carlsberg.com .**

*Anlayışınız üçün təşəkkür edirik - səhifəmizə xoş gəlmisiniz!*